# Xalqın məhəbbətini qazanan Liderin uğur formulu




*Ötən əsrin sonlarında müstəqilliyin bərpasından sonra Azərbaycanda olduqca çətin, mürəkkəb, ziddiyyətli vəziyyət yaranmışdı. Respublikamızın ittifaqın tərkibindən çıxmasını istəməyən mərkəzi hakimiyyət məkrli planlar həyata keçirirdi. Ermənistanın çoxdankı arzusu olan Qarabağ məsələsi ortaya atılmış, bir tərəfdən də daxildəki qüvvələrin satqınlığı nəticəsində ölkədə siyasi sabitlik pozulmuşdu. Tarixi ərazilərimizin 20 faizdən çox hissəsi Ermənistan tərəfindən işğal olunmuş, qardaş-qardaşa silah qaldırmaq həddinə çatmış, maddi sıxıntılar, silahlı qarşıdurmalar insanları təngə gətirmişdi. Xalq uzun illərdən sonra böyük çətinliklə yenidən qazandığı müstəqilliyini itirməmək üçün çıxış yolu axtarırdı və tapdı. 1993-cü ildə ikinci dəfə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev qısa müddətdə ölkədə təhlükəsizliyi, sabitliyi təmin etdi, vətəndaş qarşıdurmasının qarşısını aldı, xalqın iradəsinə, etimadına arxalanaraq müstəqil Azərbaycanı taleyüklü problemlərin cəngindən xilas etmək üçün gərgin fəaliyyətə başladı.*

Ulu öndər 1993-2003-cü illərdə dövlətçiliyin möhkəmləndirilməsi, müstəqilliyin qorunub saxlanması, iqtisadi geriliyin aradan qaldırılması, xalqın güzəranının yaxşılaşdırılması istiqamətində əvəzsiz işlər gördü. Azərbaycanın beynəlxalq aləmdə mövqeyi möhkəmləndi, nüfuzlu təşkilatlarla əlaqələr yaradıldı və daha da genişləndirildi, respublikamızın təbii sərvətlərindən xalqın xeyrinə səmərəli şəkildə istifadə olunması məqsədilə bir neçə beynəlxalq əhəmiyyətli müqavilələr, o cümlədən "Əsrin müqaviləsi" imzalandı, ölkəmizin neft-qaz ehtiyatları dünya bazarlarına çıxarıldı. Aparılan iqtisadi islahatlar müsbət nəticələr verdi, ölkəyə xarici investisiya axını başladı. Sözsüz ki, 70 il sovet imperiyası tabeliyində olan, müstəqilliyini bərpa etdikdən sonra isə öz maraqları naminə respublikanı tar-mar edən siyasi işbazlar tərəfindən uçuruma sürüklənən gənc, müstəqil dövlətin hərtərəfli inkişafı, böyük zəfərlər qazanması üçün zaman lazım idi.

2003-cü il oktyabr ayının 1-də xalqa son müraciətində dahi lider axıra çatdıra bilmədiyi işlərin, perspektivli planların özünün siyasi varisi, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevin uğurla yerinə yetirəcəyinə əmin olduğunu bildirdi. Hər zaman xalqın gücünə, birliyinə inanan ulu öndər bu dəfə də onu düzgün qərar verməyə çağırdı: "…Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Tarixin sınaqlarından mətanətlə çıxmış, öz istiqlalı, vətənin azadlığı uğrunda yorulmadan mübarizə aparmış Azərbaycan xalqı müdrik qərar verdi. Millətinin mənafeyini hər zaman hər şeydən üstün tutan, yarım əsrə yaxın dövlətçiliyimizə sədaqətlə xidmət edən ümummilli lider Heydər Əliyevin çağırışına səs verərək onun siyasi varisinə etimad göstərdi. 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində İlham Əliyev seçicilərin 76 faizdən çoxunun səsini qazandı. Oktyabrın 31-də keçirilən andiçmə mərasimində Prezident İlham Əliyev dahi liderin şah əsəri olan müasir Azərbaycanın gücləndiriləcəyinə, hərtərəfli inkişaf etdiriləcəyinə, yeni qələbələrə doğru inamlı addımlar atılacağına söz verdi. Ermənistanın işğal etdiyi əzəli torpaqlarımızın azad olunacağını, bir milyon qaçqın və köçkünün öz doğma yurdlarına qayıdacağını, ölkəmizin ərazi bütövlüyünün bərpa ediləcəyini qətiyyətlə bildirdi. Bütün bunları həyata keçirmək üçün Heydər Əliyev siyasi kursuna sadiq qalacağını, dövlətimizi, xalqımızı xoş gələcəyə aparan bu yoldan heç vaxt dönməyəcəyini bəyan etdi. Bununla da ümummilli liderin banisi olan müasir Azərbaycanın inkişaf tarixində yeni mərhələ başlandı.

Yüksək liderlik keyfiyyətlərinə, geniş dünyagörüşünə sahib olan İlham Əliyev ölkə rəhbərliyinə gəldiyi ilk gündən idarəçilik məharəti ilə milli maraqlara söykənən daxili və xarici siyasət həyata keçirməyə başladı. Ölkə başçısının atdığı qətiyyətli addımlar, verdiyi prinsipial qərarlar respublikamızı inkişaf yoluna çıxardı. Azərbaycanın beynəlxalq aləmdə nüfuzu artdı, dünya ölkələri ilə əlaqələr genişləndi, səmimi dostluq, qardaşlıq münasibətləri quruldu. Müstəqil dövlətimizin bu günü, sabahı üçün yeganə, alternativi olmayan Heydər Əliyev yolunu davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətin əsas sütunu olan ordu quruculuğu prosesi sürətləndi, müstəqilliyimiz möhkəmləndirildi, siyasi-iqtisadi islahatlara başlanıldı. Azərbaycançılıq fəlsəfəsi, milli maraqların qorunması, iqtisadi yüksəliş, neft strategiyasının uğurla həyata keçirilməsi, işğal altında olan ərazilərin azad olunması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması dövlət siyasətinin əsas istiqaməti olaraq müəyyənləşdirildi. Bütün bunlar xalqın öz liderinə inamını və etimadını daha da artırdı, növbəti prezident seçkilərində də İlham Əliyev inamlı qələbə qazandı.

2008-ci il oktyabrın 15-də keçirilən prezident seçkilərində 88,73 faiz səs toplayaraq ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev oktyabrın 24-də Heydər Əliyev sarayında keçirilən andiçmə mərasimində müstəqil dövlətimizin hərtərəfli inkişafı, beynəlxalq aləmdə layiqli yer tutması, güclü iqtisadi potensialın yaradılması, beynəlxalq münasibətlər çərçivəsində dünya ölkələri ilə faydalı əməkdaşlığın dərinləşdirilməsi, əlaqələrin şaxələndirilməsi istiqamətində daha böyük işlərin görüləcəyini bildirdi. Dövlət başçısı son beş il ərzində Azərbaycanın iqtisadi inkişafını, beynəlxalq mövqeyinin gücləndiyini vurğuladı. Məcburi köçkünlərin yaşayış səviyyəsinin yüksəldiyini, çadır düşərgələrinin tamamilə ləğv olunduğunu, onlar üçün yeni qəsəbələrin salındığını, müasir yaşayış binalarının tikildiyini, məktəb, tibb məntəqələrinin istifadəyə verildiyini diqqətə çatdırdı. Ölkədə aparılan islahatlardan, ordu quruculuğu prosesindən danışan Prezident Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin vacibliyinə diqqət çəkdi: "Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü danışıqların mövzusu deyil, olmayıb və heç vaxt olmayacaqdır. Dağlıq Qarabağa heç vaxt - nə bu gün, nə sabah, nə 10 ildən sonra, nə 50 ildən sonra müstəqillik verilməyəcəkdir, Azərbaycan bunu heç vaxt tanımayacaqdır".

Dahi liderin müəyyənləşdirdiyi inkişaf strategiyasının uğurla reallaşdırılması, iqtisadi müstəqilliyin tam təmin olunması, məqsədyönlü daxili, xarici siyasətin nəticəsi idi ki, xalqımız 2013-cü il oktyabrın 9-da keçirilən seçkilərdə də Prezident İlham Əliyevi 84,54 faiz səslə ölkə rəhbəri seçdi. Son on ildə görülən işləri yüksək qiymətləndirən, xalqın mütləq əksəriyyətinin səsini qazanan ölkə rəhbəri respublikada müşahidə olunan inkişaf tendensiyasının bundan sonra daha da sürətlənəcəyini, qarşıda dayanan bütün vəzifələrin yerinə yetiriləcəyini, Azərbaycanın demokratiya yolu ilə daha inamla addımlayacağını bəyan etdi. Dinlərarası, millətlərarası münasibətlərin çox yüksək səviyyədə olduğunu, beynəlxalq əlaqələrin gücləndiyini, ötən 10 ildə 39 ölkədə Azərbaycan səfirliyinin açıldığını, dünya dövlətlərinin bir çoxu ilə səmimi dostluq əlaqələrinin qurulduğunu söyləyən dövlət başçısı bütün bunların nəticəsində dünyanın bir çox ölkəsinin sülhpərvər, humanist siyasət yürüdən Azərbaycanla dost, tərəfdaş olmaq istədiyini bildirdi. Ölkədə mühüm iqtisadi islahatların düşünülmüş sosial siyasətlə tamamlandığını, sosial infrastrukturun yaradılması üçün böyük həcmdə vəsaitin ayrıldığını, respublikamızın dünya iqtisadiyyatının bir parçasına çevrildiyini, valyuta ehtiyatlarının artdığını, "Azərspace-1" peykinin artıq Azərbaycanı kosmik dövlət kimi tanıtdırdığını diqqətə çatdırdı. Bütün bunların fonunda dövlətin xarici siyasətinin əsas istiqamətinin Qarabağ münaqişəsinin həlli olduğunu vurğulayan dövlət başçısı demişdir: "Ərazi bütövlüyü məsələlərində heç bir güzəştdən söhbət gedə bilməz. Heç vaxt Azərbaycan öz ərazisində ikinci qondarma erməni dövlətinin yaradılmasına imkan verməyəcək, icazə verməyəcəkdir. Bizim birmənalı mövqeyimiz bir daha demək istəyirəm ki, tarixi ədalətə və beynəlxalq hüquq normalarına söykənir. Eyni zamanda son 10 il ərzində münaqişənin həlli üçün atılan addımlar, beynəlxalq təşkilatlarda qəbul edilmiş qərarlar təbii ki, bizim mövqeyimizi daha da möhkəmləndirir".

Sözü imzası qədər keçərli olan, xalqı, milləti qarşısında verdiyi sözə hər zaman əməl edən Prezident İlham Əliyev ölkə rəhbərliyinə gəldiyi gündən respublikamızın hərtərəfli inkişafı, beynəlxalq nüfuzunun artması, sayılıb-seçilən ölkələr sırasında qərarlaşması istiqamətində məqsədyönlü siyasət yürütmüşdür. Hərbi büdcənin ilbəil artırılması, müdafiə sənayesinin inkişafı, milli ordumuzun dünyanın ən güclü silahlı qüvvələri sırasında qərarlaşması üçün güclü ordu quruculuğu prosesi ölkəmizin ərazi bütövlüyünün bərpası istiqamətində atılan mühüm addımlar idi. Ermənistan tərəfindən işğal edilən ərazilərin azad olunması, tarixi yaşayış yerlərindən məcburi köçkün düşmüş soydaşlarımızın yurd yerlərinə qayıdışı xalqımızın taleyüklü problemi, eyni zamanda ən böyük arzusu idi. Ulu öndərin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyevin ölkəmizin ərazi bütövlüyünün bərpası üçün yorulmadan, usanmadan çalışması, hər zaman xalqın, dövlətin mənafeyindən çıxış etməsi, nüfuzlu təşkilatların Qarabağ münaqişəsinin həllinə ədalətli yanaşması üçün ciddi səy göstərməsi, beynəlxalq kürsülərdən Azərbaycanın öz ərazi bütövlüyünü sülh yolu ilə mümkün olmasa hərbi yolla bərpa edəcəyini qətiyyətlə, cəsarətlə səsləndirməsi xalqda Qarabağ məsələsinin tezliklə həll olunacağına əminlik yaradır, vahid milli ideya ətrafında birləşdirirdi. 2018-ci il aprelin 11-də keçirilən seçkilərdə İlham Əliyevin seçicilərin 86,02 faiz səsini qazanaraq 4-cü dəfə Azərbaycan Respublikasının Prezidenti seçilməsi xalq-iqtidar birliyinin bariz nümunəsi idi. Bu dəfə də öz taleyini, gələcəyini müdrik siyasətçiyə həvalə edən xalq əmin idi ki, dahi liderin yoluna, siyasi irsinə sadiq qalan, yarımçıq qalmış işləri böyük məharətlə həyata keçirən cənab İlham Əliyev müstəqilliyimizin qarantı, ərazi bütövlüyümüzün, suverenliyimizin təminatçısıdır.

Xalqın iradəsi ilə növbəti dəfə Prezident seçilən İlham Əliyev aprelin 18-də Milli Məclisdə keçirilən andiçmə mərasimində son 15 ildə respublikamızda bütün sahələr üzrə dinamik inkişafa nail olunduğunu, ölkə vətəndaşlarının yaşayış səviyyəsinin yaxşılaşdığını, müstəqil, uğurlu sosial siyasət nəticəsində yoxsulluq səviyyəsinin 50 faizdən 5,4 faizə düşdüyünü, çevik və səmərəli siyasət nəticəsində yeni iş yerlərinin yaradıldığını, siyasi islahatların dərinləşdiyini, ölkəmizin beynəlxalq nüfuzunun daha da artdığını, dünya dövlətləri ilə mövcud ikitərəfli münasibətlərin genişlənərək çoxtərəfli əlaqələrə çevrildiyini diqqətə çatdırdı. Ölkə başçısı beynəlxalq təşkilatlarda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın ədalətli mövqeyinin dəstəkləndiyini deyərək qətiyyətlə bildirdi ki, problem ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır: "Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır. Hüquqi baza var. Biz 15 il ərzində bu bazanı möhkəmləndirdik. Biz son 15 il ərzində münaqişə ilə bağlı həqiqətləri dünya birliyinə çatdıra bilmişik, kitablar yazıldı, xəritələr, qədim xəritələr ortaya qoyuldu, təqdimatlar, sərgilər keçirildi. Ondan çox ölkə Xocalı qətliamını soyqırımı kimi tanıdı. Bizim diplomatik və siyasi uğurlarımız öz nəticəsini verməkdədir". Dövlət başçısı ötən müddət ərzində ordu quruculuğu prosesinin sürətlə həyata keçirildiyini, Silahlı Qüvvələrimizin dünya miqyasında güclü ordular sırasında qərarlaşdığını vurğulayaraq qeyd etdi ki, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsinin işğalçılardan azad edilməsi, minlərlə hektar ərazinin ölkəmizin nəzarətinə keçməsi milli ordumuzun hünəri, rəşadəti sayəsində mümkün olmuşdur.

Bəli, Heydər Əliyev siyasi məktəbinin yetirməsi, beynəlxalq aləmdə dərin siyasi biliyə, yüksək intellektə, iti zəkaya sahib, qətiyyətli, cəsarətli lider kimi tanınan cənab İlham Əliyevin gərgin fəaliyyəti, dövlətçiliyimizin möhkəmləndirilməsi, ərazi bütövlüyümüzün bərpası istiqamətində düşünülmüş addımları möhtəşəm nəticəsini verdi. Müstəqilliyimizin möhkəmləndirilməsi və dövlətimizin heç bir ölkədən asılı olmaması üçün çalışan dövlət başçımız güclü siyasi iradəsi, uğurlu daxili və xarici siyasəti sayəsində hər zaman birinci planda saxladığı, dövlət siyasətinin prioriteti olaraq müəyyən etdiyi işğal altındakı ərazilərimizin azad edilməsi məsələsinin beynəlxalq hüquq normaları çərçivəsində həllinə nail oldu. 30 il Ermənistanın əsarəti altında olan tarixi torpaqlarımız işğaldan azad edildi. Xalqımız 200 illik tarixində ilk dəfə olaraq müharibədən torpaq itkisi ilə deyil, ərazi bütövlüyünün bərpası ilə qalib çıxdı. Azərbaycan Qarabağ zəfəri ilə cahana səs saldı. Bütün dünya bir daha müstəqil dövlətimizin gücünə, qüdrətinə, xalqımızın Vətənə, torpağa bağlılığına şahid oldu.

Hər bir xalqın tarixində onu zamanın sınaqlarından çıxaran, millətin taleyüklü problemlərini yoluna qoyan, dövlətçiliyini qoruyub saxlayan lideri olur. Əsrlər, qərinələr ötsə, nəsillər dəyişsə də, xalqın xilaskarı olan bu dahi şəxsiyyətlər millətin yaddaşında, tarixində əbədi yaşayır. Zaman-zaman müharibələr, münaqişələr meydanına çevrilən Odlar Yurdu Azərbaycanın müasir tarixi əbədiyaşar ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu tarixin qəhrəmanlıq səhifəsi, Zəfər salnaməsi isə müdrik, qətiyyətli, xalqın etimadını, məhəbbətini qazanan Qarabağ Fatehi Prezident İlham Əliyev tərəfindən yazıldı.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**